# Kredo

İNSANIN TARİX İNSANIN ZƏKA VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 31 (1111) 03 avqust 2022-ci il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır

# SÖZÜN VARSA, ÖZÜN VARSAN

**İnsanlığı yaşadan düz sözdür, yalan sözdür,**
**Bu dünyanın özü də gəz, ara, dolan sözdür.**
**Mən kiməm desən özün, səndən sonra söz bilər,**
**Yazı bilər, düz bilər, ömürdən qalan sözdür.**



## ÖMÜRDƏN QALAN SÖZDÜR

Məlahət Soltanqızı... Son on ilin təəssüratı əsasında bir neçə qənaətimi bildirmək istəyərdim; o, ədəbiyyatşünas tədqiqatçıdır. Şübhəsiz, kifayət qədər istedada malik bədii düşüncə adamıdır. Bir az da dəqiqləşdirsək, şairdir.

Məlahət xanımın özünüifadə imkanları daha çox poetik yaradıcılıqla bağlıdır. Amma onu da deyim ki, mən Məlahət Soltanqızının lirik şeirlərini, həyati müşahidə imkanları ilə bağlı poetik lövhələrini də ardıcıl olaraq izləmişəm. Demək, istedad, həyat həqiqətlərinə münasibət həmişə müəllifin ilhamının qanadlanması üçün yardımçı olur. Yəqin ki, Məlahət də öz şeirlərilə zamanın rənglərini sözə gətirərkən elə həyatın özünə güvəncli olur.

Şair o zaman özünüifadə imkanlarına sahib olur ki, o, həyatı ən təzadlı rənglərilə görə bilir. Onun düşüncə imkanları məhz ziddiyyətli məqamlarda öz gücünü göstərə bilir. Yəqin ki, Məlahət Soltanqızı həyatın hər hansı bir tərəfinə münasibət bildirirsə, bunu özünün daxili-mənəvi tələbatı ilə icra edir. Əslində, elə söz-sənət adamının Tanrı qarşısındakı ən böyük borcu elə bu tələbata cavab verməkdən başlayır.

Həyata, cəmiyyətin mənəvi mühitindəki ziddiyyətlərə münasibətini daha çox poemaları ilə üzə çıxarır. "Yarımçıq ömrün xatirəsi" kitabı bu günlərdə nəşr olunub. Və M.Soltanqızının poemalarını əhatə edir.

O, 1992-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib. İlk gəncliyindən ədəbi taleyini sözə bağlayıb. "İşığa doğru gedirəm" (2002), "Çox inanmışdım sənə" (2004), "Ruhun savaşı" (2010) adlı şeirlər və poemalardan ibarət kitabların müəllifidir. Onun şeir və poemalardan ibarət bir kitabı da 2015-ci ildə İngiltərədə nəşr olunub. Onu da qeyd etmək yaxşı olar ki, Məlahət Soltanqızı Qədirova ədəbi-elmi tədqiqatlarla da ardıcıl məşğul olur və filologiya üzrə fəlsəfə doktorudur. Hazırda filologiya elmləri doktorluğu üçün elmi tədqiqatlarını davam etdirir. Ancaq bədii poetik yaradıcılıqdan da kənarda deyil.

Yuxarıda qeyd etdiyimiz kimi "Yarımçıq ömrün xatirəsi" (2022) kitabına poemaları daxil edilmişdir.

Onu da qeyd etmək lazımdır ki, Məlahət xanım poemalarında cəmiyyəti düşündürən problemləri aşkarlamağı, xüsusilə, insan mənəviyyatının qaranlıq tərəflərinə işıq salmağı özünə borc bilir.

İndi tez-tez deyirlər ki, ən operativ, ən yığcam informasiya zamanıdır. İnsanların daha tez məlumat almaq istəyini danmaq olmaz. Hətta daha geniş həyat mənzərələrini göstərən romanların da keçmişdə qaldığını deyənlər var.

*(Davamı 16-cı səhifədə)*

*(Əvvəli 1-ci səhifədə)*

# ÖMÜRDƏN QALAN SÖZDÜR

Poeziyada isə kiçik lirik lövhələr daha önəmli hesab olunur. Ancaq bütün bu əlüstü məlumat almaq istəyinin azərkeşlərinə bunu da demək yaxşı olardı ki, yenə də romanlar yazılır və yenə də maraqlı roman müəllifləri cəmiyyət tərəfindən təqdir olunur. Hansı janrda yazılmasından asılı olmayaraq hər hansı bir əsər insanın qəlbindən, hissiyyatından keçirsə, o da oxucu arasında öz yerini tapır. Hər bir müəllif öz əsəri ilə oxucu düşüncəsində özünə düşərgə yarada bilir. Bu yanaşma ilə poema yaradıcılığına da münasibət bildirmək olar. Demək, şairlər nə qədər lirik ovqatda və kiçik həcmli şeirlərlə könülləri fəth etsələr də, yenə də poemalar yazılmaqda davam edir. Poema janrının müasir dövrlə səsləşən örnəkləri tədqiq olunur, araşdırılır. Uğurlu poema müəllifləri öz oxucuları arasında xüsusi rəğbətlə qarşılanırlar.

Məlahət Soltan qızı "Yarımçıq ömrün xatirəsi" adlı kitabına topladığı poemaları ilə sanki bu janrla bağlı mübahisələrə öz etiraz qarışıq münasibətini bildirir. Demək, sənətkarın istedadından, həyatı müşahidə imkanlarından asılıdır ki, o, müəyyən həyat hadisələrini necə poetik ovqatda ifadə edə bilir. Məlahət Soltan qızının yeni poemalar kitabına "Yarımçıq ömrün xatirəsi", "Ruhun savaşı", "Könül yarası", "Qadın", "Dünya", "Həyat, insan, zaman", "Yoxsulluq", "Xəyanətin bədəli", "Bu gün kini, nifrəti düşmənə çevirməli" adlı əsərləri toplanıb. Bu poemaların son duracaq yeri şairin mənəvi mühitidir. O, bütün varlığı ilə həyatı öz düşüncələrinə ziddiyyətləri ilə birgə yığır.

Onu da demək lazımdır ki, Məlahət Soltan qızının poemaları daha çox lirik ovqat üstə köklənir. Onsuz da poema janrını çox vaxt qarışıq janr hesab edirlər. Çünki poemada həm lirika duyulur, həm də həyatın ayrı-ayrı mənzərələri epik şəkildə təsvir olunur.

Məlahət Yusif qızının poemalarında isə lirik ovqat əvvəldən-axıra qədər daha güclü olur. Ruh axını onun əsərləri boyu özünü göstərir.

* * *

"Yarımçıq ömrün xatirəsi" poeması Azərbaycanın Milli Qəhrəmanı Çingiz Fuad oğlu Mustafayevin əziz xatirəsinə həsr olunub. Poemanın əvvəlində o, "ya Rəbbim" deyərək mənəvi yaradıcılıq qüdrətinə müraciət edir, sanki ondan kömək umur. Yuxusunu qovmağı, onu ətalətdən çıxarmağı arzulayır. Bununla da müəllif ideal olaraq tərənnüm etdiyi obraza doğru yoluna işıq istəyir.

Məlahət Yusif qızının tərənnüm obrazı kimi Çingiz Mustafayev çox xarakterikdir. Xüsusilə indiki zamanımızla çox səsləşir. Əlbəttə, biz bununla Qarabağ savaşına hazırlıq dövrümüzün təlaşlarını da unutmuruq. Çünki Qarabağı işğaldan azad edən gənc nəsil müstəqillik dövrünün övladlarıdır. Çingiz Mustafayev isə müstəqillik uğrunda savaş zamanının qəhrəmanıdır. Bu mənada Məlahət Soltan qızının "Yarımçıq ömrün xatirəsi" poeması nə qədər tarixə münasibətdirsə, bir o qədər günümüzə münasibətdir. Və bu yerdə bir həqiqəti deməliyik ki, müstəqillik dövrünün gəncləri Azərbaycan vətənpərvərliyi idealı ilə silahlanarkən, heç şübhəsiz, müasir Azərbaycan ədəbiyyatının önə çıxardığı obrazların təbiətlərindən də qaynaqlanırdılar. Bu mənada Məlahət Yusif qızı həm də ikinci Qarabağ savaşının öz qəhrəmanları ilə birgə vuruşan əsgərlərindəndir.

Hər bir yazıçı əsgərdir, hər bir şair döyüşçüdür. Xüsusilə öz qəhrəmanları ilə birgə cəbhədə savaş yolu açan söz adamı ikiqat döyüşçüdür. Bu mənada biz Məlahət Soltan qızının bədii qəhrəmanı Çingiz Mustafayevin 44 günlük savaşda müəllifin özü ilə birgə iştirakçı olduğunu gərək təsdiq edək.

Poeziya insan qəlbinə təsir edə biləcək ən uğurlu vasitələrdən biridir. Poetik imkanlarına görə oxucunun varlığına sirayət edən müəlliflər həmişə yaddaşda olur, təqdir imkanları ilə fərqlənirlər.

Məlahət Soltan qızı ruhu etibarı ilə ilhamlı müəllifdir. Sözünün poetik gücünü qədərincə göstərə bilir.

***(Davamı var)***

***Ə.R. XƏLƏFLİ.***

Kredo.- 2022- ci il.- 3 avqust.- S. 16.